Azəebaycan Arxeologiyası Cild 24 № 1 2021. 101-108
Xəzər Universiteti Nəşriyyatı DOI: 10.5782/2218-0346.2021.24.1.101

# Gəmiqaya ətrafında qədim mədəniyyət izləri

**Toğrul Xəlilov**
AMEA Naxçıvan Bölməsi
x.toqrul@gmail.com

**Açar sözlər:** Gəmiqaya, Gilançay vadisi, yeni arxeoloji abidələr, arxeoloji tədqiqat.

**Giriş**

Qədim dövrlərdə Naxçıvan Muxtar Respublikasında insanların məskunlaşdığı əsas ərazilərdən biri Gəmiqaya ətrafı olmuşdur. Gəmiqayanın adı, ecazkar gözəlliyi, haqqında söylənilən əfsanə və rəvayətlər hər zaman geniş elmi ictimaiyyətin marağına səbəb olmuşdur. Buradakı vulkanik mənşəli daşlardakı qayaüstü təsvirlər Naxçıvan diyarının digər Tunc dövrü incəsənət nümunələri ilə bağlılıq təşkil edərək qədim tariximizi, maddi və mənəvi mədəniyyətimizi dərindən öyrənmək sahəsində elmi əhəmiyyət daşıyır. Heyvan, insan, araba təsvirlərini, sxematik formada çəkilmiş simvolik işarələri, astral rəsimləri və s. başqa tarixi nümunələri qeyd etmək olar. Gəmiqayada qırxdan çox araba rəsmi var. Onlar dörd təkərli və iki təkərli çəkilmişdir. Bu qayaüstü təsvirlər təsadüfən çəkilməmişdir, onlar gil təkər və araba modelləri ilə məntiqi cəhətdən bağlılıq təşkil edir. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, Naxçıvan diyarındakı I Maxta (1, s. 119), I Kültəpə (22, s. 139), II Kültəpə (29, s. 56), Ovçulartəpəsi (3, s. 348) abidələrində belə arxeoloji materiallar aşkar olunmuşdur. Naxçıvanla yanaşı dünyanın bir çox yerlərindəki arxeoloji abidələrdə belə artefaktlar yayılmışdır. Baba Dərviş (27, s. 97, şək. 6, 7), Leylatəpə, Böyük Kəsik, Qalayeri, II Poylu (11, s. 85), Polutəpə (25, s. 224-225), Mingəçevir (24, s. 130, ris. 100-101), Yanıqtəpə (31, tab. XXIV), Göytəpə (30, s. 48, fig. 13) və digər abidələri buna nümunə göstərmək olar. Dünyanın müxtəlif yerlərindəki arxeoloji abidələrdə gil təkər və araba modellərinin yaşayış yerləri ilə yanaşı qəbir abidələrində aşkar olunması onların təsadüfən düzəldilmədiyini, müəyyən məntiqi əsasının olduğunu qeyd etməyə əsas verir. Bu tip arxeoloji materialların “Araba mədəniyyəti” ilə bağlı olduğunu ehtimal etmək olar. Tədqiqatçılar arasında bu mədəniyyət "Bir heyvan qoşma mədəniyyəti" (17, s.295), “Atlı araba mədəniyyəti” (21, s. 166) də adlandırılmışdır.

Gəmiqayadakı qayaüstü təsvirlərlə yanaşı onun ətrafındakı Son Tunc-Erkən Dəmir, Antik və orta əsrlər dövrünə aid arxeoloji abidələrdə də qədim

mədəniyyət izlərini müşahidə etmək mümkündür. Dəmyələr nekropolunda aşkar olunmuş şüşə muncuqları (4, s. 84-85), Qumluq nekropolundan aşkar olunmuş tunc xəncərləri (5, s. 81-85; 8, s. 117-121), Haçaqaya yaşayış yerində qeydə alınmış boyalı qabları (9, s. 67-74) və digər arxeoloji materialları nümunə göstərmək olar.

Qumluq nekropolundan aşkar olunmuş xəncərlərin bənzərləri Xocalı-Gədəbəy mədəniyyətində geniş yayılmışdır. Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı bir çox ərazilərdən belə artefaktlar aşkar olunmuşdur. Xanlar, Xaçbulaq (28, s. 189), Mərdangöl (23, s. 26, 34), I Boyəhməd (13, s. 22), Kolanı (12, s. 57) nekropolarını buna nümunə göstərmək olar.

Dəmyələr nekropolunda aşkar olunmuş şüşə muncuqların elmi əhəmiyyəti ondan ibarətdir ki, təbii vulkanik şüşə olan dəvəgözü daşından fərqli olaraq süni yolla şüşə istehsalı məhsuldar qüvvələrin inkişaf səviyyəsi, yüksək mədəniyyətə sahib olması ilə bağllıq təşkil etmişdir. Məlumdur ki, ən qədim şüşə nümunəsi Mesopotamiya, Misirdə, ilk şüşə əridilən kürə isə Şərqi Fələstində aşkar edilmişdir (2, s. 586). Tədqiqatçıların bir çoxu onun ilk vətəninin Misir, bir qismi isə Babilistan olduğunu qeyd etmişlər. 1891-1892-ci illərdə Misirdə arxeoloji qazıntılar aparan F.Retriyə görə ən qədim şüşə istehsalı mərkəzi Mesopotomiyanın şimal hissəsi hesab edilsə də, onun Qafqazda Misirdən də qabaq mövcud olduğunu ehtimal etmək olar (15, s. 49). Qafqazda şüşənin qədim dövrdən başlayaraq istehsal edildiyini sübut edən dəqiq faktlar hələlik olmasa da, şüşə istehsal etmək üçün lazım olan kömür ağacları (palıd, vələs və s. ), soda yataqları, şüşə qumu Xəzər sahilində, Xırdalanda, Qarabağda və Azərbaycanın başqa yerlərində olduqca zəngindir. Daşkəsən kobalt yataqları isə təkcə Azərbaycanda deyil, həm də bütün Yaxın Şərqdə məşhur olmuşdur.

Dəmyələr nekropolu ilə yanaşı Şahtaxtı və Qızılburun nekropollarnda da belə artefaktlar aşkar olunmuşdur. Onların qarşılıqlı iqtisadi-mədəni əlaqələr nəticəsində Naxçıvana gətirildiyi ehtimal olunmuşdur (26, s. 95),

Haçaqaya yaşayış yerində sadə qablarla yanaşı boyalı keramika parçalarının aşkar olunmasını “Boyalı qablar mədəniyyəti”nin Gəmiqaya ətrafını da əhatə etdiyini sübut edən fakt kimi qiymətləndirmək olar. “Boyalı qablar mədəniyyəti” nin Azərbaycan arxeologiyasında özünəməxsus yer tutduğunu, onun şəhərsalma mədəniyyəti dövründə yarandığını, əsasən oturaq həyat tərzi keçirən insanların məskunlaşdığı ərazilərdə yayıldığını nəzərə alsaq bu arxeoloji materialların qədim dövr tariximizi öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıdığını qeyd etmək olar.

Gəmiqaya ətrafında məskunlaşmış insanların yarımköçəri həyat tərzi ilə yanaşı oturaq həyat tərzi keçirməsi bir qrup tədqiqatçıların fikirlərində də öz əksinui tapmışdır. Akademik İ.Həbibbəyli dünya sivilizasiyaları üçün xarakterik olan məskunlaşma, insan birliklərinin yaranması, etnobirliklərin formalaşması və yayılması xüsusiyyətlərinin Gilançay vadisinin yuxarı hissəsində, Gəmiqayada müşahidə olunduğunu göstərərək qeyd etmişdir ki, "... orada insanlığın oturaq həyatının əsası qoyulmuşdur. Nəbi yurdu, Xəzər obası, Qaranquş yaylağı anlayışlarının hər birində yurd salmaq, oba qurmaq mənaları ifadə olunur ki, bunlar da öz növbəsində insan birliklərinin mərkəzləşməsinin, cəmiyyət elementlərinin əmələ gəlməsinin tərkib hissələrindəndir" (7, s. 65).

AMA-nın (AMEA?) müxbir üzvü H.Qədirzadə şəhər mədəniyyətinin formalaşmasında saxsı məmulatının (keramikanın), dulusçuluğun mühüm yer tutduğunu bildirərək qeyd etmişdir ki, "Naxçıvan ərazisində keramika istehsalı üçün yararlı olan gil yataqları Nehrəm-Babək istiqamətində, Xornuda, Aşağı Buzqov, Sultanbəy, Gərməçataq istiqamətində, Nəhəcir-Sürəməlik ərazilərində, Arpaçayın aşağı hövzəsində olduğu kimi Gilançayın orta axarlarında və digər yerlərdə də olmuşdur*"* (10, s.94-95).

Gəmiqaya ətrafında müşahidə olunan qədim mədəniyyət izləri içərisində dağ kultu və onqon quş motivləri ilə bağlı elementləri də qeyd etmək olar. Quş motivinə Gəmiqaya təsvirləri ilə yanaşı Orta əsr abidəsi olan Humay qayası ilə bağlı topladığımız etnoqrafik materiallara da rast gəlmək olur. Abidə eyni adlı dağın yamacında yerləşir. Yerli əhalinin verdiyi məlumata görə oranın adı Humay adında quşla bağlı olmuşdur.

Humay adı ilk dəfə Gültəkin abidəsində, daha sonra Tonyuqukda çəkilmişdir. Bu abidələrdə Humay (Umay) ilahəsinə inamdan bəhs olunmuşdur. Tonyuquk abidəsində Humay haqqında belə yazılmışdır. "Geri dönelim. Ere (?) nefsini saklamak yektir dedi. Ben (ise) böyle derim! Ben Bilge Tonyukuk Altun ormanını aşarak geldik, İrtiş Irmağı'nı, geçerek geldik. (buraya) gelenler (düşmanlar) cesur dedi (demişler); (bizim geldiğimizi ise) duymadılar. Tanrı, Umay kutsal yer, sular (bizim için onlara) gaflet verdi. Neye kaçarız. (Onlar) çok diye niye korkarız. Az[ız] diye niye basılalım. Taarruz edelim dedim. Taarruz ettik, perişan ettik. Ertesi günü çok geldiler" (16, s. 113-114).

Humay quşu ilə bağlı araşdırma apararkən məlum olur ki, quşlar qədim türk mədəniyyətində özünəməxsus yer tutmuşdur. Hər bir oğuz soy və boyunun ayrıca quş onqonu olmuşdur (20, s. 54-60; 6, s. 70-72). B. Ögəl həmin onqonları boy və soylar üzrə qruplaşdırarkən Çəbni-Şunqarı Humay (Hümay)

formasında göstərmişdir. Tədqiqatçı qeyd etmişdir ki, "əfsanəvi hüma / humay quşunun adı indi mövcud olan quşlara da verilmişdir. Məsələn, huma və ya hüma Krımda ən yaxşı cins qartallardan birinə verilən ad olmuşdur. Bu quşun adı qırğız ləhcəsində kumay kimi işlənmişdir. Qırğızlar quş növünün ən böyük cinsinə kumay demişlər" (18, s. 365). H. Tantəkin qeyd olunana münasibət bildirərkən Humay quşunu "Hüma quşu" adlandıraraq qeyd etmişdir ki, ".... bu quş şahlıq quşu surəti kimi nağıllara daxil olmuşdur. O kimin başına qonardısa, xalq həmin adamı hakimiyyətə gətirib özünə padşah etmişdir. Huma (Humay) quşu sinfi mənsubiyyətindən, cinsindən asılı olmayaraq hər kəsin başına qonmuşdur" (14, s. 59).

Onqon quş motivi kimi dağ motivi də qədim türk mədəniyyətində özünəməxsus yer tutmuşdur. Türk mifologiyasında dağa olan inam, dağ kultu geniş yayılmışdır. Yalnız Altay-Sayan Türklerində deyil, Yakutların mifoloji inanclarında da dağ əhəmiyyətli yeri tutur. Yaqut mifologiyasında dağların qohum və nəsilin qoruyucusu olması ilə bağlı xeyli məlumatlar vardır. Yakutlar dağa hörmətlə dağ sahibi (yakytca tia iççite ) deyirlər. Hakasların inancına görə dağlar canlı varlıqlar kimi böyüyərlər. Şorların inancına görə isə kiçik dağlar daha böyük dağlara tabedirlər, dağlar bir yerdən başqa yerə gedə bilər, bir-birləri ilə döyüşər və hətta evlənərlər (19, s. 51-53).

Aparılan araşdırma zamanı sonda onu qeyd etmək olar ki, istər Gəmiqayadakı qayaüstü təsvirlərdə, istərsə də onun ətrafındakı arxeoloji abidələrdə bir çox qədim mədəniyyətlərin izləri vardır. Onların hər biri qədim dövr tariximizi dərindən öyrənilmək sahəsində mühüm elmi əhəmiyyət daşıyır. Naxçıvanın digər bölgələri kimi Yuxarı Gilançay vadisinin, Gəmiqaya ətrafının da qədim sivilizasiya ocaqlarından biri olduğunu qeyd etməyə əsas verir.

**Ədəbiyyat**

1. Aşurov S.H., Hüseynova S.A.. Əliyeva F.A.. Əliyev E.H., Əzizov K.Ş., Qasımlı V.A., Abdullayeva A.Q. Maxta arxeoloji ekspedisiyasının 2013-2014-cü il tədqiqatları // Azərbaycanda arxeoloji tədqiqatlar-2013-2014, Bakı: 2015, s. 114-121.
2. ASE X cild. Bakı: Azərbaycan Sovet Enisklopediyası Baş Redaksiyası, 1987, 608 s.
3. Baxşəliyev V.B., Marro C., Aşurov S.H (2013) Ovçulartəpəsində arxeoloji tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar-2012, Bakı: s. 343-349
4. Baxşəliyev V.B. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 4, s. 84-93.

5. Baxşəliyev V.B. Ordubad rayonunun Bist kəndi ətrafında Son Tunc və Erkən Dəmir dövrünə aid abidələr // Naxçıvan Müəllimlər Institutunun Xəbərləri, 2006, № 2 (6), s. 81-85.
6. Əbülqazi Bahadır xan. Şəcəreyi-Tərakimə (Türkmənlərin soy kitabı). Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2002, 145 s.
7. Həbibbəyli İ. Nuh peyğəmbər və dünya tufanı toplusu / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 apreldə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan: Əcəmi, 2010, s. 55-69.
8. Xəlilov T.F. Qumluq nekropolundan tapılan tunc xəncərlər // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2008, №1, 117-121.
9. Xəlilov T.F. Haçaqaya yaşayış yeri və nekropolundan tapılan keramikalar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2013, cild 9, № 1, s. 67-74.
10. Qədirzadə H.Q. Naxçıvanda şəhər mədəniyyətinin formalaşması ilə bağlı bir neçə söz // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Qeyrət, 2010, s. 89-97.
11. Müseyibli N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı: Nafta-Press, 2014, 140 s.
12. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 144 s.
13. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 103 s.
14. Rəşidəddin F. Oğuznamə.Tərtibçi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2003, 108 s.
15. Osmanov Q.S. Qəbələnin şüşə məmulatı (1959-1960-cı il qazıntı materialları əsasında) / AMM, V c, Bakı: Az. SSR EA, 1964, s. 148-150.
16. Tantəkin H. Sehirli nağılların onqon və əsatiri surətləri. Bakı: Şirvannəşr, 2004, 138 s.
17. Baheddin Ö. (2003) İslamiyetten Önce Türk Kültür Tarihi (Orta Asya Kaynak ve Buluntularına Göre). Baskı 3, Ankara: Türk Tarih Kurumu yayınları, 403 s.
18. Baheddin Ö.. Türk mitolojisi (Kaynakları ve Açıklamaları ile Destanlar). 1 cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.
19. Fuzuli Bayat Türk Mitolojisinde Dağ Kültü. Folklor / edebiyat, 2006/2, s. 47-61.
20. Naki Tezel. Türk masalları. İstanbul: Bilge kültür sanat, 2011, 208 s.
21. Şayan U.Ş. (2005) Türk Kültüründe At Arabası (At Arabalarının Dili) // Bilig, kış, sayı 32, Ahmet Yesevi Üniversitesi Mütevelli Heyet Başkanlığı, s. 165-178.
22. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, "Элм", 1982, 314 с.
23. Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М. Древние некрополы Хараба Гилана. Баку: Нурлан, 2003, 101 с.

24. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. (1959) Древний Мингечаур. Баку: Элм, 191 с
25. Ахундов Т.И. Памятники Муганской степи и предпосылка расселения ранних земледельцев на Южном Кавказе в эпоху неолита-энеолита // Startum plus, № 2, Одесса-Бухарест: (2011) s. 219-236.
26. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана, Баку, Элм, 1991, 256 с.
27. Исмаилов Г.С. Глиняные фигурки из поселения Бабадервиш близ г. Казах Азербайджанской ССР / Доклады АН Азерб. ССР, №10, XVIII Баку: (1962) с. 95-99.
28. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку: Агрыдаг, 1999, 179 с.
29. Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.
30. Brown T.B. (1951) Excavations in Azerbaijan 1948. London: 279 p.
31. Burney C.A. (1962) The Excavations at Yanik Tepe, Azerbaijan, 1961 Second Preliminary Report // İraq, Vol. 24, No. 2, Autumn: British Institute for the Study of Iraq, pp. 134-152 c.

**Summary**

**Traces Of Ancient Culture On Mount Gamigaya**

**Togrul Khalilov**

The article discusses new archaeological sites registered in the valley of the Gilanchay River. Archaeological research has been carried out in this region since 1968. The numerous settlements and necropolises discovered so far belong to different historical periods. The study of the monuments once again confirmed the opinion that the valley of the Gilanchay River is the place of early settlement of the Turkic peoples. Archaeological research continues to search for new sites.

**Keywords:** Gamigaya, valley of Gilanchay, new archaeological monuments, archaeological investigations.

# Резюме

## Следы древней культуры у горы Гямигая

### Тогрул Халилов

В статье рассматриваются новые археологические памятники, зарегистрированные в долине реки Гиланчай. В этом регионе начиная с 1968 г. проводятся археологические исследования. Обнаруженные до сих пор многочисленные поселения и некрополи относятся к разным историческим периодам. Изучение новых памятников еще раз подтвердило ранее высказанную гипотезу, что долина реки Гиланчай является местом раннего поселения тюркских народов. Продолжаются археологические исследования по поиску новых памятников.


**Ключевые слова:** Гямигая, долина реки Гиланчай, новые археологические памятники, археологические исследования.